**Məmməd Salman oğlu Kazımov,**
Azərbaycan Respublikası Təhsil İnstitutu,
aparıcı elmi işçi, pedaqogika üzrə fəlsəfə doktoru, dosent

## MİLLİ MENTALİTETİMİZİN ŞAGİRDLƏRƏ AŞILANMASI YOLLARI

**Мамед Салман оглы Кязимов,**
Институт Образования Азербайджанской Республики,
ведущий научный сотрудник, доктор философии по педагогике, доцент

## ПУТИ ПРИВИВАНИЯ НАЦИОНАЛЬНОГО МЕНТАЛИТЕТА К ШКОЛЬНИКАМ

**Mammad Salman Kazimov,**
Institute of Education of the Republic of Azerbaijan,
leading researcher, PhD in pedagogy, associate professor

## WAYS OF GIVING A NATIONAL MENTALITY TO PUPILS

**Xülasə:** Məqalədə Azərbaycan xalqının milli mentalitetinin şagirdlərə aşılanması yollarından danışılır. Qeyd olunur ki, xalqın mövcudluğunu sübut edən və dünyaya tanıdan əsas göstəricilərdən biri onun milli mentaliteti və ən qiymətli sərvətidir. Milli-mənəvi dəyərlər həmin xalqın tarixi, dili, dini mənsubiyyəti, adət-ənənələri, mədəniyyəti, musiqisi, ədəbiyyatı və incəsənətidir. Həmçinin milli mentalitetin mənfi ünsürlərdən qorunması və təbliğində məktəbin üzərinə böyük məsuliyyət düşür.
**Açar sözlər:** *milli mentalitet, dəyərlər, ləyaqət hissi,xarakter, adət-ənənə, milli düşüncə, ideoloyi formalaşma;*

**Резюме:** В статье рассказывается о способах, с которыми можно привить ученикам национальный менталитет азербайджанского народа. Отмечается, что одним из основных показателей, который доказывает существование народа, является его национальный менталитет и это его самое ценное богатство. Национально-нравственные ценности – это история, язык, религиозная принадлежность, традиции, культура, музыка, литература и искусство этой нации. Также отмечается, ответственность за защиту и поощрение национального менталитета, беречь его от негативных элементов лежит на ответственности школы.
**Ключевые слова:** *национальный менталитет, ценности, чувство чести, характер, традиция, национальное мышление, идеологическое формирование*

**Summary:** The article describes the ways in which the national mentality of the Azerbaijani people can be instilled in students. It is noted that one of the main indicators that proves the existence of a nation is its national mentality and this is its most valuable wealth. National moral values are the history, language, religious affiliation, traditions, culture, music, literature and art of this nation. It also notes that the responsibility to protect and promote the national mentality, to protect it from negative elements lies with the responsibility of the school.



**Key words:** *national mentality, values, sense of honor, character, tradition, national thinking, ideological formation*

Xalqımızın inkişaf tarixini öyrənərkən məlum olur ki, qazanılmış bütün milli dəyərlər, əxlaq normaları, mənəviyyat, insanların həyata baxışları ilə bağlı mentalitet, mənəvi dəyərlər xalq tərəfindən yaradılır və inkişaf etdirilir. Xalqın mövcudluğunu sübut edən və dünyaya tanıdan

əsas göstəricilərdən biri onun milli mentalitetidir. Xalqın mentaliteti ayrı-ayrı fərdlərdə və ictimai qruplarda əqli vərdişlərin, milli ənənələrin, düşüncə tərzinin və mənəviyyatın kompleks təzahürüdür. Bu, həmin xalqın ən qiymətli sərvətidir. Hər bir xalq öz milli mentalitetinə və mənəvi dəyərlər sisteminə malikdir.Hər bir xalqın tarixi, dili, dini mənsubiyyəti, adət-ənənələri, mədəniyyəti, musiqisi, ədəbiyyatı və incəsənəti onun milli-mənəvi dəyərləridir. Milli mentalitet və milli dəyərlər nədir? Mentalitet – xalqın xarakterində, düşüncə tərzində və davranış qaydalarında, məişətində, adət-ənənələrində öz əksini tapan, həmişə sabit qalan milli xüsusiyyətlərdir. Bunun da əsasını milli şüur təşkil edir. Milli şüur insanların ideya, meyillərində öz millətinin yerini, mövqeyini müəyyənləşdirə bilmələri, sosial-etnik mənsubiyyətini dərk etmələri ilə bağlı olan milli ləyaqət hissidir.

Müxtəlif dövrlərdə, ictimai-tarixi şəraitdə insanlar qarşısında müəyyən tələblər qoyulmuş və onların həyata keçirilməsi üçün ayrı-ayrı metodlardan istifadə edilmişdir. İctimai şərait dəyişdikcə, tələblər də dəyişmişdir, lakin bütün dövrlərdə dəyişməyən bir amil vardır ki, o da özünü dərk edən insan faktorudur. Belə insanlar güclü, ədalətli, qürurlu və ləyaqətli olur, bəşəri hissləri, ictimai mövqeni özününkündən üstün tutur, xalqın adət-ənənələrini, mentalitetini dəyərləndirir və "mənim xalqım" anlayışını aydın dərk edirlər. Mentalitet tez-tez və müxtəlif mənalarda işlədilən sözlərdən biridir. "Mentalitet insanın cəmiyyətdə formalaşmasına, inkişafına istiqamət verən davranış qaydalarıdır". Alman filosofu İ.Q.Herderə (1744-1803) görə, xalqın mentalitetini onun musiqisi, dili, iqlim şəraiti, ictimai quruluş və həyat tərzi müəyyənləşdirir.

Milli xarakter, milli mentalitet, adət-ənənələr xalqın özünümühafizə və özünütəsdiq forması kimi əsrlərlə yaşamış və milli məfkurə ilə qarşılıqlı təsirdə inkişaf etmişdir. Türkçülük ideologiyasının banilərindən olan Ziya Göyalp milləti dil, din, əxlaq, gözəllik duyğusu baxımından müştərək olan, eyni tərbiyəni almış fərdlərdən ibarət bir toplum kimi səciyyələndirərək qeyd etmişdir: "Millətdə tərbiyənin, dil və din birliyinin, milli ruhun, xarakterin, mentalitetin, ideyanın olması,milli məfkurənin yaranması və inkişafı əsas amillərdən biridir".

Amerika filosofu Çarlton İ.N.Hayes milliyyətçiliyi bir din kimi xarakterizə edərək, onun mahiyyətini bu cür diqqətə çatdırır: "Hər bir millət öz varlığını, xarakterini, mənliyini mədəni və tarixi güclərdən almağı bacarmalıdır".

Humanist psixologiyanın atası hesab edilən Karl Rocers göstərir: "İnsan öz həyatının sahibi olmalı, qəbul etdiyi qərarlarda müstəqilliyini qorumaqla yanaşı, məsuliyyətini dərk etməli, əxlaq və xarakterinin inkişafında mühüm rol oynayan bu keyfiyyətləri potensial imkanlar kimi həmişə daxilində saxlamağı bacarmalıdır. Bu xüsusiyyətlər insanın problemlərinin həllinə istiqamətlənmiş əlverişli həyat şəraitinin tənzimlənməsinə, əqli inkişafın və milli-mənəvi dəyərlərin formalaşmasına kömək edir".

Milli ideologiyanın formalaşmasında əsas amillərdən biri olan milliyyətçiliyi XX əsrdə millətin ideologiyası kimi təqdim edənlər də olmuşdur. İngilis sosioloqu A.Smit "XX əsrdə millətçilik" əsərində keçən əsri *millətçilik əsri* adlandıraraq göstərir ki, bu ideologiya həmin dövrdəki bütün ideologiyaları əvəz edəcəkdir. Müəllif millətçiliyə, dünyaya, mədəniyyətə və siyasətə baxış kimi amilləri sayaraq, onu sosial tərəqqinin hərəkətverici və müasir dövrün inqilabi qüvvəsi hesab edir. A.Smit millətçiliyi xalqların yeganə gələcək ideologiyası adlandırırdı. O, XX əsrdə millətçiliyin iki forması – kommunizm və faşizm ideologiyaları ilə qarşı-qarşıya gələcəyini, haqlı olaraq onun məhvə məhkum olduğunu israr edirdi.

"Milli xarakter"i "milli temperament" və "millətin psixi xüsusiyyətləri" anlayışları ilə eyniləşdirənlər də var. *Mentalitet* sözünü milli şüurla əlaqələndirmək olar. Milli şüur nədir? Milli şüur insanların ideya, hiss və meyillərində əks olunması, milli münasibətlər sistemində millətinin yerini, mövqeyini müəyyənləşdirə bilməsidir.

Xalqların mentaliteti və adət-ənənələri ilə dərindən maraqlanan Seula Benet Qafqazda, o cümlədən, Azərbaycanda olarkən "Necə yaşayasan ki, yüzü haqlayasan" adlı əsərində belə bir qənaətə gəlir ki, Qafqaz xalqlarının ən qədim adətlərindən biri qonaqpərvərlikdir. Bu məqsədlə, ən

kasıb ailə belə qonaq otağı tikir, gələn qonağı hörmətlə qarşılayır və onun qulluğunda durur. Benetə görə, azərbaycanlılar dostpərəst, qonaqpərvər, gözütox, mal-dövlət hərisi olmayan bir xalqdır və şəxsiyyətin müvəffəqiyyəti evində, nəsil arasında, kənarda insanlarla yaratdığı sədaqətli dostluq münasibətləri ilə ölçülür. Azərbaycanlılarda ünsiyyətlilik, açıqürəklilik uzunömürlülərin sayının çox olmasına təsir göstərir".

Dünyada milli-mənəvi dəyərləri ilə tanınan Azərbaycan xalqı yaşatdığı və təbliğ etdiyi bəşəri ideyaları, adət-ənənələri, milli xüsusiyyətləri ilə digər xalqlar arasında özünəməxsus yer tutur. Araşdırmalardan məlum olur ki, qədim köklərə malik Azərbaycan xalqı əsrlər boyu mənəvi dəyərlər xəzinəsini qoruyub saxlaya bilmişdir. Azərbaycanın milli dəyərləri orta əsrlərdə formalaşmış və o vaxtdan bəri çox az dəyişmişdir. Azərbaycanlıların çox vaxt *türk-islam dəyərləri* adlandırılan əxlaq qaydaları toplusunun özəyi orta əsrlərdəki türk hərbi-feodal şərəf kodeksinin təsiri altında formalaşmışdır. Bu kodeks haqqında məlumatı "Dədə Qorqud" (XI əsr) və "Koroğlu" (XVI əsr) kimi türk dastanlarından almaq olar: "Ya hər şey – ya heç nə!"; "Məğlubiyyət – ölümdən də pisdir!"; "Kömək diləmək – ayıbdır."; "Şücaət xeyirdən üstündür."; "Qənaət – xəsislik deyil."; "Ehtiyatlılıq – qorxaqlıq deyil."; "Qonaq – Allahındır."; "Ailə – müqəddəsdir."; "Söz verdinsə, əməl elə!"; "Qadının namusu – toxunulmazdır!". Belə el məsəlləri əxlaq normalarının təsdiqi kimi qəbul edilir. Qədim dövrlərdə "Dədə Qorqud", "Manas", "Alpamış", "Koroğlu" dastanları, dahi şair və yazıçılar – Nizami Gəncəvi, Məhəmməd Füzuli, Nəsimi, Yunus Əmrə, Əlişir Nəvai, Maxdımqulu, Abay Kunanbayev və digərlərinin tarixi, mənəvi dəyərləri əks etdirən klassik əsərləri nəsilləri, xalqları özünəməxsus milli-mənəvi, o cümlədən, ümumbəşəri dəyərlər əsasında tərbiyə etmiş, vətənpərvərlik, Vətənə sədaqət hisslərini daim gücləndirmişdir. Bu zəngin irsdə xalqın soy-kökünə bağlı olan adət-ənənələr yaşayaraq müasir dövrümüzə qədər gəlib çatmışdır. Xalqın mərasim və adət-ənənələri, islam dininin təmizlik, düzlük, insanlıq kimi bəşəri, ali hissləri tərbiyə etmək milli-mənəvi dəyərlərimizdə yaşayır. Bütün bunların məcmusunda Azərbaycan vətəndaşının mənəviyyatı görünür. Əsrlərin, qərinələrin sorağı bizi uzun illər yol gələn bu ənənələrə bağlamış, dövrümüzə körpü salmışdır. Müasir insanın formalaşması və özünütəsdiqi məhz milli-mənəvi dəyərlərin aşılanması prosesi ilə bağlıdır. Azərbaycanın qədim mənəvi dəyərləri, mədəni irsi hazırda xalqın qürur mənbəyi və dünya mədəniyyətinə töhfəsi kimi qiymətləndirilir. Bu sahəyə dövlət qayğısının günügündən artması və beynəlxalq təcrübənin tətbiqi istiqamətində görülən işlər qeyri-maddi mədəni irsin gələcəyinə nikbin baxmaq ümidlərini artırır. Azərbaycan xalqı azad və suveren dövlət quraraq mədəni, iqtisadi islahatlar aparmaqla öz milli-əxlaqi dəyərlərinə, tarixinə qayıdır, demokratik ölkələrin təcrübələrindən istifadə edir. Deyilənləri nəzərə alaraq, təqdim edilən bu məqalədə milli-mənəvi dəyərlərin qorunmasında ulu öndər Heydər Əliyevin rolundan, milli-mənəvi dəyərlərin təbliği məqsədilə həyata keçirilən kütləvi tədbir formalarından, bu dəyərlərin mühafizəsi və gələcək nəsillərə ötürülməsində əhəmiyyət kəsb edən beynəlxalq hüquqi sənədlərdən, mövzu ilə əlaqədar əlavə materiallardan istifadə olunmuşdur.

Ümumtəhsil məktəblərində "Milli mentalitetimizi şərtləndirən başlıca keyfiyyətlər" mövzusunda seminarlar, dəyirmi masalar və diskussiyaların keçirilməsi vacibdir. Bu diskussiyaların, əsasən, tarix, coğrafiya, texnologiya, Azərbaycan dili və ədəbiyyat, həyat bilgisi, xarici dil dərslərində keçirilməsi daha səmərəli nəticələr verə bilər. Bu zaman seçilən mövzular, əsasən, "Biz öz tarixi, milli köklərimizlə, milli-mənəvi ənənələrimizlə, böyük tariximizlə fəxr edirik!" mövzusuna uyğun olmalı, ulu öndər Heydər Əliyevin – "Gələcəyimiz olan gənclər milli-mənəvi dəyərlərimizi unutmamalı, tariximizi, ana dilimizi bilməli və qorumalıdırlar" çağırışı ilə səsləşməlidir.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 15.01.2019-cu il tarixli F-18 nömrəli əmri ilə təsdiq edilmiş "Müasir dövrdə ümumtəhsil məktəb şagirdlərinin tərbiyə olunması sisteminin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" fəaliyyət planında ideoloji maarifləndirmə, milli-mənəvi və ümumbəşəri dəyərlərin formalaşdırılması, vətənpərvərlik tərbiyəsi və s. sahələrdə görüləcək işlərin yerinə yetirilməsinə xüsusi diqqət ayrılmış, milli özünüdərk, milli düşüncə, milli-mənəvi,

ümumbəşəri və multikultural dəyərlərin təbliği,təsdiqi ilə əlaqədar tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Biz, adətən, tariximiz haqqında, xalqımızın böyük mədəniyyəti haqqında danışarkən, ilk növbədə, gənc nəslə bədii əsərlər, şairlərimiz, yazıçılarımız və onların əsərləri haqqında ətraflı məlumatlar verməli, onlara istinad etməliyik. Bu nümunələri tədris edərkən ana dilinin təbliğinə xüsusi diqqət yetirilməlidir. Bu məqsədlə, ümumtəhsil məktəblərində "Ana dilimizi sevək, sevdirək", "Dilimiz – milli varlığımızdır", "Milləti yaşadan onun dilidir" və s. mövzularda tədbirlərin keçirilməsi vacibdir. Dilin təbliği ilə bağlı məktəblərdə təşkil edilən bütün tədbirlər – söhbətlər, disputlar, müzakirələr, ədəbi-bədii gecələr və s. şagirdlərdə dilimizə məhəbbət hissi formalaşdırır. Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən, fevralın ayının 21-i ölkəmizdə Ana Dili günü kimi qeyd edilir.

Qeyd etmək lazımdır ki, 27 ilə yaxın müstəqillik tarixinə malik olan Azərbaycan hökumətinin apardığı siyasət, adət-ənənələri, milli dəyərləri, Cənubi Qafqazdakı mövqeyi beynəlxalq təşkilatlar tərəfindən qəbul olunur və digər ölkələrlə əlaqələri uğurla davam etdirilir. Azərbaycan Respublikasının inkişafı bu gün də dünya dövlətlərinin diqqət mərkəzindədir. Ölkəmizin YUNESKO ilə əməkdaşlığı 1993-cü ildə ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra inkişaf etməyə başlamışdır. Ümummilli lider Heydər Əliyev Azərbaycan və YUNESKO əlaqələrinin vacibliyini qeyd etmiş və göstərmişdir ki, Azərbaycan xalqının mədəniyyəti, adət- ənənələri dünyanın ən qədim mədəniyyətlərindən biri sayıldığı üçün bu gün də YUNESKO Azərbaycana xüsusi qayğı ilə yanaşır. Azərbaycançılıq məfkurəsinin geniş təbliğ olunmasına kömək etmək, gənc nəslin sağlam, milli-mənəvi dəyərlərə sadiq, hərtərəfli biliklərə malik vətəndaş kimi yetişməsinə yardım məqsədilə "Milli-mənəvi dəyərlərimiz" adlı sosioloji sorğu keçirmək olar. Sorğu şagirdlər arasında aparılmalı və bu zaman onların yaş xüsusiyyətləri nəzərə alınmalıdır. Sorğunu keçirməzdən əvvəl uşaqlara onun məqsədi, mövzusu barədə açıqlama verilməlidir. Anket sorğusunu həyata keçirmək üçün sualları təxminən bu qayda üzrə tərtib etmək olar:

– Milli dəyərlər dedikdə nə başa düşürsünüz?
– Heydər Əliyev Fondu tərəfindən milli dəyərlərimizin qorunması və təbliği üçün hansı işlər həyata keçirilir?
– Milli dəyərlər haqqında nə bilirsiniz?
– Milli dəyərlərin qorunması üçün nə edirsiniz?
– Milli dəyərlərin qorunması və təbliğinin əhəmiyyəti nədir?
– Sinfiniz milli dəyərlərin təbliğində necə iştirak edir?

Sorğunun məqsədi məktəblilərin, yeniyetmələrin mənəvi dəyərlərimizə dair biliklərinin yoxlanması, bu dəyərlərin qorunması, tanınması metodlarını onlara aşılamaq və maarifləndirməkdir. Azərbaycan folklorunda – bayatılarda, atalar sözlərində, dastanlarda, xalq mahnılarında, nağıllarda milli dəyərlər haqqında çoxlu məlumatlar mövcuddur.

Xalqın milli dəyərlərini təbliğ etmək üçün hazırlanan tədbirin kompozisiyasına uyğun olaraq xüsusi proqram, ssenari tərtib edərək, səhnəciklərin hazırlanması məqsədəuyğundur. Təşkilatçı ssenarıdə şənliyin əvvəlindən sonuna kimi bütün elementləri (çıxışlar, qonaqların rəyləri, musiqi nömrələri) əks etdirir. Qonaqların qarşılanması, iştirakçıların yerləşdirilməsi, aparıcıların yeri, tədbirin keçiriləcəyi məkanın mövzuya uyğun tərtibatı, lazımi stendlər, sərgi materialları əvvəlcədən planlaşdırılır. Tədbirdə mövzu ilə bağlı şeirlər, bədii qiraət, ədəbi kompozisiya və səhnəciklər bir-birini əvəz edir. Tədbirdən əvvəl məktəbdə rəssamlığa, memarlığa meyil göstərən şagirdlərin qabiliyyətlərini aşkara çıxarmaq, sərgiləndirmək üçün mövzuya aid çəkiləcək ən yaxşı şəkillər, illüstrasiyalar, hazırlanacaq maketlər, əl işləri üçün müsabiqə elan etmək olar.

Novruz bayramına aid təşkil olunmuş tədbirdə ssenariyə maraqlı ədəbi viktorina da əlavə edilir. Tədbirdə Novruz tamaşaları göstərmək, musiqi, kəndirbaz rəqsləri, folklor kollektivlərinin çıxışları, bayram ənənələrinin əks olunduğu milli kulinariya nümunələri də nümayiş etdirmək məqsədəuyğundur.Tədbirə muğam ifaçıları və sənətçiləri də dəvət etmək olar.

Bu gün Azərbaycanda minlərlə yeni qurulan ailənin müqəddəs örnək kimi istinad edəcəyi qürur və fəxarət ünvanı var. Gənc ailənin ən böyük xoşbəxtliyi isə onun hər bir üzvünün cəmiyyət üçün gərəkli, faydalı şəxsiyyət olmasıdır. Mental yaddaşımız Leyli və Məcnun, Əsli və Kərəm, Yusif və Züleyxa, Tahir və Zöhrə, İlham və Fərizənin timsalında ilahi sevginin mükəmməl nümunələrini xatırlayır. Heydər Əliyev öz ömür-gün yoldaşı, mərhum akademik Zərifə xanıma olan sonsuz sevgisini etiraf etməsi ilə mənəviyyat tariximizdə bütün nəsillərə örnək ola biləcək məhəbbət əfsanəsi yaratdı. May ayının 15-də Beynəlxalq Ailə gününün qeyd olunması milli-mənəvi dəyərlərimizin əsaslarından birini təşkil edir.

Xalqımızın tarixi qəhrəmanlıq keçmişini, milli ənənələrini əks etdirən filmlərin çəkilməsi əsas problemlərdən biridir. Belə filmlərə "Nəsimi", "Babək", "Dəli Kür", "Qaçaq Nəbi" və s. daxildir ki, onlar da gəncliyin milli, qəhrəmanlıq ruhunda tərbiyəsində və sonralar kütləvi surətdə müstəqillik hərəkatına qoşulmasında böyük rol oynamışdır.Ulu öndər daim Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Məmməd Araz, İsa Hüseynov, Anar kimi milli zəminə bağlı istedadlı sənətkarları himayə edirdi. Milli mənəvi dəyərlər adət-ənənələrlə nəsildən-nəslə ötürülən, yazılmamış qayda-qanunlardır, onların mənfi ünsürlərdən qorunması və təbliğində məktəbin üzərinə böyük məsuliyyət düşür.

**Məqalənin elmi yeniliyi**. Məqalədə mentalitetimizin şagirdlərə aşılanmasında yeni yanaşmaların yolları göstərilmiş, sinifdaxili və məktəbdənkənar tədbirlərin keçirilməsində istifadə olunan ssenarilər haqqında, anket sorğuları üçün tələb olunan sualların məzmunu haqqında əlavə məlumatlar verilmişdir.

**Məqalənin praktik əhəmiyyəti**. Milli mentalitetimizi şagirdlərə aşılamaq məqsədilə təşkil olunan tədbirlərdən, onların keçirilmə qaydalarından, bu zaman meydana çıxan problemlərin aradan qaldırılması yolları haqqında məlumatlardan həm şagirdlər, həm də müəllimlər bəhrələnəcəklər.

**Ədəbiyyat**


1. Abbasov A.N. Milli əxlaq və ailə etikası. Bakı: "Mütərcim", 2008.
2. Əliyev P.B., Əhmədov H.H.Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi. Bakı: "Təhsil", 2008.
3. Əlizadə Ə., Əlizadə H.Ə. Pedaqoji psixologiya (dərslik) Bakı: "Elm və təhsil", 2008.
4. Əliyev R.İ. Mentalitet. Bakı: "Elm və Təhsil", 2009.
5. Kərimov Y.Ş. Təhsilin aktual problemləri. Bakı: "Mütərcim", 2007.
6. Rüstəmov F A., Karl Rocers və şəxsiyyətyönümlü təhsil. Bakı: "Elm və Təhsil", 2019.



**E-mail: memmedkazim@ mail.ru**



**Redaksiyaya daxil olub:11.07.2019**


## ***AFORİZMLƏR***

- Demokratiya insanların şüurunda dəyişiklik deməkdir. Bu dəyişiklik inqilabla olmur, təkamül yolu ilə, tədricən gedir. *(Heydər Əliyev)*
- Dövlət iki şeydən sarsıla bilər: günahkar cəzasız qalanda və günahsıza cəza veriləndə. *(Heydər Əliyev)*
- Adətlərə arxalanmayan qanunlar zəif olur. *(Mark Tulli Siseron)*
- Bəşəri məhəbbətdən kənarda vətən sevgisi yoxdur. *(Anatol Frans)*
- Dövlət Vətəni təcəssüm etdirəndə vətəndaşla Vətən arasında əks əlaqə münasibəti yaranır ki, bu da övlad-valideyn münasibətini xatırladır. *(Əbu Turxan)*